# GÜL HÜSEYN OLMAĞIN ŞƏRƏFİ

## yaxud ziyalı portretindən cizgilər

### Şair Publisist Gülhüseyn Kazımın 70 illik yubileyindən qeydlər

*Söz mənim taleyimdir, yazsam da, yazmasam da,*
*Sözün məna yolunu yozsam da, yozmasam da.*
*Bu dünyanın üzünü yol elədim sözümlə*
*Son ümidim Vətəndir azsam da, azmasam da.*
**Müəllifdən.**

Fevral ayının dördündə Beynəlxalq Muğam Mərkəzinin böyük konsert zalında şair-publisist, görkəmli ictimai xadim Gülhüseyn Kazımın 70-illik yubileyi qeyd olundu. Tədbiri giriş sözü ilə açan yazıçı-dramaturq, şair, Yazıçılar Birliyinin katibi İlqar Fəhmi sənətkarın 70 illik ömür və yaradıcılıq yolu haqqında geniş və əhatəli danışdı.

Tənqidçi ədəbiyyatşünas görkəmli alim Qurban Bayramov şair-publisist Gülhüseyn Kazımın həyat və yaradıcılığı haqqında dəyərli və əhatəli məruzə elədi. Məruzəçinin nitqindən belə məlum oldu ki, Gülhüseyn Kazım çox incə zövqlü şair olmaqla bərabər həm də, cəmiyyətşünas alimdir, filosofdur. Dəyərli sosioloji tədqiqatlar müəllifidir. Onun yaradıcılığının iki mühüm istiqaməti rəqabətdədir; Poetik üslubda yaradıcılığı və fəlsəfi ədəbiyyatşünaslıq istiqamətində tədqiqatları (görkəmli ədəbiyyatşünas tənqidçi Qurban Bayramovun böyük ictimai xadim, şair və telepublisist Gülhüseyn Kazım haqqında geniş və əhatəli yazısını qəzetimizin bu sayında təqdim edirik. Ona görə də, yubiliyarın həyat və yaradıcılığı haqqındakı faktların əhatəlkiliyinə lüzum görmürük. Qəzetimizin bu sayında oxuyun. - Ə.R.X)

Sənətkarın şərəfinə düzənlənən ədəbi musiqili tədbir Azərbaycanın görkəmli mədəniyyət xadimlərinin çıxışları ilə davam etdirildi. Xalq artisti Mənsum İbrahimov Gülhüseyn Kazımın muğam sahəsindəki tədqiqatlarına diqqəti yönəldərək qeyd etdi ki, Gülhüseyn Kazımın Beynəlxalq Muğam mərkəzindəki tədbirləri Azərbaycan Muğamının təbliği sarıdan mühüm əhəmiyyət kəsb edir. Xalq artisti Təyyar Bayramov, əməkdar artist İlkin Əhmədov həm şair-publisist, həm də Beynəlxalq Muğam Mərkəzindəki musiqi layihələrinin aparıcısı və rəhbəri Gülhüseyn Kazımın Azərbaycan mədəniyyətinin yeni mərhələdəki inkişafına əvəzsiz xidmətləri haqqında danışdılar və özlərinin musiqi tövhələrini tədbirin tamaşaçılarına təqdim etdilər. Şair-publisist, tərcüməçi Maşallah Məftun Gülhüseyn Kazımı haqqında xatirələrini danışdı. Onun ədəbi mənəvi mühitdəki yerini, mövqeyini təsdiq edən təsirli notlarını yada saldı və dostu Gülhüseyn Kazıma həsr elədiyi təsirli şeirini oxudu. Yazıçı publisist Səyyad Aran Gülhüseyn Kazımla tələbəlik illərindən üzü bəri yaddaşında yaşarılıq alan xatirələrini danışdı. Mətbuat şurasının sədri Əflatun Amaşov AzərTAcda işləyərkən gənclik çağlarında Gülhüseyn Kazımla olan mətbuat informasiya əlaqələri ilə onun üstün, prinsipial, əqidəli, xarakter keyfiyyətlərini göstərən xatirələri yada saldı.

Xalq artisti Ramiz Quliyev bir çox mətləblərə nəzər yetirdi. Mənəvi mühitimizin müstəqillik dövründəki təkamülündə Gülhüseyn Kazımın böyük xidmətlərini qeyd etdi. Və çox dəyərli alqışlarla qarşılanan bir ifa nümayiş etdirdi. Xalq artisti Teyyub Aslanov, gənclər Nisbət Sədrayeva, Murad Rüstəmzadə Azərbaycan muğamının könül oxşayan sədaları ilə məclisə rövnəq verdilər. Sənəti çox dəyərli, orjinal ifası ilə könülləri oxşayan Sevinc Sarıyevanın səsi də tədbirə çox parlaq işıq bəxş elədi.



Bəlkə də dünyada elə adamlar var ki, yaşamağına görə çörək qazana bilməyini, dolanışığını təmin etməyini əsas bilir. Amma əslində belə deyil. Çünki, bitki münbit torpaq və hava varsa, rütubət, su görürsə bitir, böyüyür. Təbiətə öz payını verir. Hətta heyvanlar da təbii olaraq ruzilərini yaşadığı mühitdən ala bilirlər.

Bəs insan?.. insan isə yalnız maddi təminatla yaşaya bilmədiyini get-gedə daha çox hiss edir. Sivilizasiyanın, mədəniyyətin, mənəvi inkişafın yeni mərhələlərinə daxil olmaq üçün insana daha çox ruhi qida gərəkdi. Və insan bunu get-gedə daha artıq inamla dərk edir və bunun uğrunda mübarizəyə girişir.

Gülhüseyn Kazımın 70 illik yubileyində yaşanan təəssürat məhz bu həqiqəti diktə edirdi. Çünki o, bir şair kimi sənətşünas, insanşünas alim kimi ömrünü insanın mənən zənginləşməsi, daxilən kamilləşməsi yolunda sərf edib.

* * *

Gülhüseyn Kazım çoxlu poetik kitabların müəllifidir, elmi tədqiqatlarının əsasında isə insanın dərki dayanır. Təsadüfi deyil ki, elə tədqiqat əsərinin adı, mövzusu, əsas mahiyyəti "İnsanın dərki"dir.

Mən Gülhüseyn Kazımlını ilk dəfə 1966-cı ildə (tarixin qısa dəqiqləşdirməyə ehtiyacı var) Cəbrayıl Rayonunda çıxan "Kolxozçu" indiki "Xudafərin" qəzetində görmüşəm: "Bahar qonaq gəlir odlar yurduna" şeiri ilə kəndimizdəki məktəbin 6-cı yaxud 7-ci sinifdə oxuyan şagirdi üçün bircə şeirlə yaddaşa yazılmaq hər halda müəllifin böyük uğuru idi. Sonralar ali məktəb dövründə, tələbəlik çağlarında anam mənə dəfələrlə deyirdi ki, "Gülhüseyn bizim qohumdur, get onu tap". Mən Gülhüseyni tapdım, onun zəngin yaradıcılığını oxuya-oxuya, uğurlarından qürur duya-duya, vəzifə mənsəb pillələrini keçməyini gördükcə, sevinə-sevinə tapdım.

Anam Xudayarlı qızıdır. Səfəvilərdən üzü bəri gələn soyun nümayəndəsidir. Bu gün də öz kökü-soyu ilə qürur duyur. Harda da başıuca nəsil övladı görürsə, onunla fəxr eləyir. İndi 86 yaşı var. Bu günün özündə də bir az çətinə düşəndə, mənə deyir ki, "Niyə Gülhüseynin yanına getmirsən?" Nə isə...

Gülhüseyn Kazım Azərbaycan mədəniyyəti üçün kimdir?! 70 yaşlı bir sənətkarın böyük mədəniyyət xadiminin ünvanına belə bir sualı qoymaq mənəvi cəhətdən heç düzgün deyil. Amma hər kəsin haqqı olan sözü deməli olduğumuzu vicdani borc hesab elədiyimizdən qismən də olsa bu suala da cavab verməliyik.

Beynəlxalq Muğam Mərkəzində Gülhüseyn Kazım çox dəyərli layihələrin müəllifi olaraq möhtəşəm tədbirlərin təşkilatçısı və aparıcısıdır. Xüsusilə, onun bir əsir o tərəfdən tarixə qovuşmuş görkəmli muğam ustadları ilə bağlı təşkil elədiyi gecələr mədəniyyətimizin ən dəyərli səyifələridir. Və heç vaxt unudulan deyil. Bir dəfə o, Mirzə Həsən Nalə ilə o, dedi ki, Nalə muğam oxuyanda dizi üstə oxuyarmış və dizi üstə dinləyicinin qabağında heç özünün xəbəri də olmadan dövr eləyərmiş. Bu gün Gülhüseyn Kazımın Azərbaycan mədəniyyəti və incəsənəti xüsusilə, muğamı təbliğ sarıdan xidmətlərini Nalənin dizi üstə "Sərgüzəştinə" qiyas etmək olar.

Gülhüseyn Kazım zəngin insandır, dünya mənəvi xəzinəsini bir insanın əxz edə biləcəyi qədər zəngin ziyalıdır. Bu sarıdan mənim üçün Gülhüseyn Kazım bir müsahib olaraq "Cami-Cəm" təsiri bağışlayır.

**(Davamı 16-cı səhifədə)**

# GÜL HÜSEYN OLMAĞIN ŞƏRƏFİ

## *yaxud ziyalı portretindən cizgilər*



*(Əvvəli 1-ci səhifədə)*

Gülhüseyn Kazım bir şair kimi poetik güc sahibi kimi kifayət qədər özünü ifadə gücündə olan şairdir. Onun poetik öncəgörmələri əlli il bundan əvvəl yazdığı şeirlərdə bu günün oxucusu üçün sözün həqiqi mənasında heyrətdoğurucu təsirdədir. Xüsusilə, Şuşa və Qarabağ mövzulu şeirlərində...

...Və mən də elə onun mənəvi mühitinin təsiri altında həyat, insanlıq, gəldi-gedərlik və bu gəldi-gedərliyin fonunda əbədilik mahiyyətinə poetik münasibət bildirmək istədim.

Bu da mənim "Karvan gedir..." şeirim. Bəsirət gözü ilə baxan hər kəs bu dünya karvanında Gülhüseyn Kazım adlı bir sarvanı da görə bilər:

Karvan gedir, səfər üstə öz yolundan qalmaz axı,
Dərd yükünü Tanrı verib kimsə ondan almaz axı.

Qəm karvanı - öz dərdinin ovsarını çəkir sarvan
Gözlərində qəm aparan göz yaşını silməz axı.

Sinəsində dağlar yatır, yurda sarı baxa-baxa
Ürəyində dərd gəzdirən bir ürəkdən gülməz axı

İlham alsa şair qəlbi sevda dolu bir könüldən
Yollar boyu qəm çilənmiş söz gülləri solmaz axı.

Arif olan özü bilər; hardan gəlir söz karvanı
Bilməyənə necə deyim; mənaları bilməz axı.

Ömür payı, həyat eşqi bir badədir içə bilsən?
Yaşarısan zaman-zaman, əbədilər ölməz axı.

Ey əzizim, piyaləni yaxşı saxla, düşər sınar,
Atalardan bir məsəl var: hər tökülən dolmaz axı.

Ayrılırıq cavanlıqdan, qəm eləmə qocalıq var,
Bilirsən ki, əldən gedən bir də geri gəlməz axı.

Bu dünyadan çox Hüseyn gəlib-gedib yaxşı-yaman,
Ey Xələfli, hər gördüyün Gül Hüseyn olmaz axı.



Gülhüseyn Kazım ədəbiyyat dağına söykənib muğam ümmanını antik filosoflarsayağı seyr etmək gücündədir. Gülhüseyn Kazımın bir ədəbiyyat xadimi, sənətşünas, musiqi tariximizin tədqiqatçısı yönümü həmin - 70 illik yubiley gününün məzmununda da görünürdü. Tədbirin aparıcıçı, Yazıçılar Birliyinin katibi, ünlü sənətkarımız İlqar Fəhmi, tədbirin keçirildiyi yer Muğam Mərkəzi idi. Zənnimcə, bu iki amil Gülhüseyn Kazımın mənəvi mühitinin tərəfləri haqında kifayət qədər aydınlaşdırıcı işalələrdir.

Həyatımızın, taleyimizin gizli işarələri var: bizli, bizsiz həmin işarıələr bizim haqqımızda danışır.

Gülhüseyn Kazım həm şairliyində, həm də filosof-tədqiqatçılığında qədərincə cəmiyyətə açıq olan ziyalıdır.

Və bu gün də mənəvi mühitindən cəmiyyətə, insanlara çox dəyərli düşüncələri ilə xidmət göstərməkdədir.

Düşünə bilən insanlar yaşayırlar.

Xeyirli düşüncələrlə yaşayan insanların yaşamağa daha çox haqqı var.

*Əli Rza XƏLƏFLİ*
*10.02.2020*

Kredo 2020.- 13 fevral.- S.1;16.